# Məğribdən Məşriqə yayılan Nəsimi ziyası

## *Dünyanın bir sıra elm və mədəniyyət ocaqlarında 650 yaşlı şairin adı anılıb*

Martın 7-də İstanbulda Türk Ədəbiyyat Vəqfində "Nəsimi İli" münasibətilə tədbir keçirilib. Tədbir Azərbaycanın Mədəniyyət Nazirliyi, TÜRKSOY, Azərbaycan Milli Kitabxanası və Türk Ədəbiyyat Vəqfi tərəfindən təşkil olunub.

Tədbirin əhəmiyyətindən söz açan vəqfin rəhbəri Serhat Kabaklı bildirib ki, belə tədbirlərin təşkili iki qardaş ölkənin mədəni yaxınlaşmasının əsasını təşkil edir.

Bu tədbirin türk dünyası üçün çox vacib olduğunu deyən TÜRKSOY-un baş katibinin müavini professor Fırat Purtaş Nəsimi yaradıcılığının nəinki türk dünyası, ümumən bəşəriyyət üçün dərin məna kəsb etdiyini söyləyib. F.Purtaş vurğulayıb ki, Nəsiminin yaradıcılığı millətlər və xalqlar arasında təmas nöqtəsidir.

Tədbirin reallaşmasında əməyi keçən hər kəsə minnətdarlığını ifadə edən Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev dəyərlərimizi yaşatmaq baxımından belə tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb.



Ə.Qarayev İmadəddin Nəsimi yaradıcılığının dünyada tanınması, adının əbədiləşdirilməsi, əsərlərinin araşdırılması və kütləvi şəkildə nəşr edilməsinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, 1970-ci illərdə Nəsiminin 600 illik yubileyi dövlət səviyyəsində məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə keçirilib və tarixdə ilk dəfə UNESCO tərəfindən bir Azərbaycan şairinin yubileyi layiqincə qeyd olunub. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən

nazir söyləyib ki, Azərbaycanda görkəmli şəxsiyyətlərin adının uca tutulması istiqamətində mühüm addımlar atılır.

Atatürk Mərkəzinin rəhbəri akademik Nizami Cəfərov çıxışında Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm bir mərhələ təşkil edən Nəsimi yaradıcılığı haqqında məlumat verib. Akademik şairin yaradıcılığının dilçilik, xüsusilə Azərbaycan türkcəsinin tarixi inkişafını öyrənmək baxımından müstəsna əhəmiyyətə malik olduğunu, böyük mütəfəkkirin 650 il öncə yaşayıb-yaratmasına baxmayaraq, yazdığı əsərlərin ana dilimizi və bədii sözümüzü zirvələrə qaldırdığını söyləyib.

Türkiyəli professorlar Esat Harmancı, Nüsret Gedik söz sənətinin qiymətli incilərini meydana gətirmiş bu filosof şairin bütün türk ədəbiyyatının təkmilləşməsinə töhfələr verdiyini, Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii-fəlsəfi fikrində dərin iz qoyduğunu söyləyiblər.

Tədbir Nəsimi yaradıcılığının fəlsəfəsinə həsr olunmuş panel iclası ilə davam edib.

* * *

Hindistanın Aqra şəhərində yerləşən Kendriya Hindi Sansthan Universitetində "Nəsimi İli" çərçivəsində konsert proqramı təqdim olunub. Konsert ölkəmizin Hindistandakı səfirliyinin təşkilatçılığı ilə reallaşıb.



Əvvəlcə tədbir iştirakçılarına Nəsiminin həyat və yaradıcılığı haqqında geniş məlumat verilib. Sonra universitetdə təhsil alan Azərbaycan və digər türkdilli ölkələrdən olan tələbələr tərəfindən müxtəlif mahnı və rəqslərin yer aldığı konsert proqramı nümayiş etdirilib.

Universitetin rektoru Nand Kişor Pandeyin, eləcə də ali təhsil ocağının müəllim və tələbə heyətinin izlədiyi konsert maraqla qarşılanıb.



***

Şimali Kiprin Sosial Elmlər Universitetində (SEU) böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650-ci ildönümü və türkiyəli görkəmli el sənətkarı Aşıq Veysəlin anadan olmasının 125-ci ildönümü münasibətilə anma mərasimi təşkil edilib.



Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, TÜRKSOY və SEU tərəfindən təşkil olunan mərasim rəsmi hissə, panel və bədii proqramdan ibarət olub.

Rəsmi hissədə TÜRKSOY-un baş katibi professor Düsen Kaseinov və SEU-nun rektoru professor Mustafa Tümerin çıxışları dinlənib.

Çıxışlarda Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı tərəfindən 2019-cu ilin türk dünyasında "Nəsimi İli" və "Aşıq Veysəl İli" elan olunmasının əhəmiyyətindən danışılıb.

Toplantının panel hissəsində professorlar İlqar İmamverdiyev, Umay Türkeş və başqaları İmadəddin Nəsiminin və Aşıq Veysəlin həyat və yaradıcılığından, onların poeziya nümunələrinin türkdilli xalqların musiqisinin inkişafında rolundan danışıblar.

* * *

Aprelin 10-da Vyanada yerləşən Azərbaycan Mədəniyyət Mərkəzində dahi Azərbaycan şairi və filosofu İmadəddin Nəsimiyə həsr olunmuş məruzə axşamı keçirilib.

Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova "İmadəddin Nəsimi və onun dövrü" adlanan tədbirdə çıxış edərək şairin Azərbaycan ədəbiyyatı üçün əhəmiyyətindən danışıb. O xatırladıb ki, Azərbaycan Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq bu il ölkəmizdə "Nəsimi İli" elan edilib, bu səbəbdən də dünyanın müxtəlif elm və mədəniyyət ocaqlarında şairin yaradıcılığına həsr olunmuş tədbirlər keçirilir.

Sonra L.Qasımova tədbir iştirakçılarına tanınmış almaniyalı alim, nəsimişünas Mixael Raynhard Hessi təqdim edib. Bildirib ki, almandilli məkanda ən çox tanınan Nəsimi tədqiqatçısı M.R.Hess şair-filosofun həyat və yaradıcılığına dair fundamental əsərlər yazıb, öz doktorluq dissertasiyasını da bu mövzuya həsr edib. Təkcə Azərbaycan deyil, bir sıra türk dillərinə dərindən yiyələnən M.R.Hess Nəsimi yaradıcılığının alman dilinə ən mükəmməl tərcüməçisi kimi də tanınır. L.Qasımova bunu da vurğulayıb ki, bu kimi şairlərin əsərlərini tərcümə edərkən vəzn ölçüsünün düzgün transferi ilə yanaşı, müxtəlif məna çalarları və sanballı fəlsəfi çəkiyə malik misraların çevrilməsi dərin bilik, bədii duyum və peşəkarlıq tələb edir.



Mixael Hess məruzəsində Nəsimi yaradıcılığının araşdırılmasında və tərcüməsində ortaya çıxan problemlərə toxunub. Ümid etdiyini bildirib ki, Azərbaycan Prezidentinin Sərəncamı ilə elan olunmuş "Nəsimi İli" bu sahədə mühüm irəliləyişlərin əldə edilməsinə öz töhfəsini verəcək.

Qeyd edək ki, Mixael Hess Heydər Əliyev Fondunun dəstəyi ilə İmadəddin Nəsimi yaradıcılığına həsr olunmuş kitablar yazıb, onun tərcüməsində dahi şairin şeirlər kitabı alman dilində işıq üzü görüb. Alim hazırda Nəsimi yaradıcılığı haqqında yeni kitab üzərində işləyir.

* * *

"Naxçıvan" Universitetində "İmadəddin Nəsimi – 650" mövzusunda elmi konfrans keçirilib.

Konfransda çıxış edən ali təhsil ocağının rektoru professor İsmayıl Əliyev Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin ölkəmizdə "Nəsimi İli" elan edilməsi ilə əlaqədar Naxçıvanda da şairin həyat və yaradıcılığı ilə bağlı silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

Sonra universitetin Azərbaycan dili və ədəbiyyat, kafedrasının dosentləri Arifə Zeynalovanın "Nəsimi ədəbi dilində məcazlar və onun işlənmə məqamları" və Aypara Behbudovanın "Azərbaycan şeirinin Nəsimi zirvəsi" mövzularında çıxışları dinlənib.



Daha sonra tələbələr Nəsiminin qəzəllərini söyləyiblər.



Qeyd edək ki, "Nəsimi həftəsi" çərçivəsində universitetdə Xalq şairi Qabilin "Nəsimi" poemasının müzakirəsi, tələbələrin Culfa rayonundakı Xanəgah Abidə Kompleksinə ekskursiyası da təşkil olunub.

* * *

Aprelin 24-də Braziliya Milli Konqresinin binasında Azərbaycanın Braziliyadakı səfirliyinin, Braziliya Milli Konqresinin Deputatlar Palatasında Azərbaycan-Braziliya dostluq qrupunun sədri Klaudio Kajadonun dəstəyi ilə İmadəddin Nəsiminin 650 illiyinə həsr edilmiş "Azərbaycanın mədəniyyəti, ənənələri və peyzajı" adlı fotosərginin açılış mərasimi olub.



Tədbirdə səfir Elxan Poluxov ölkəmizin mədəniyyəti, adət-ənənələri, eləcə də Azərbaycanla Braziliya arasında formalaşmış ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı haqqında tədbir iştirakçılarına məlumat verib.

Tədbirdə Braziliya parlamentinin deputatları, senatorları, Braziliya Xarici Əlaqələr Nazirliyinin əməkdaşları, eləcə də bu ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

* * *

Beynəlxalq Türk Akademiyasının təşəbbüsü və təşkilatçılığı ilə Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində "Nəsimi İli"nin açılışı olub. Mərasimdə Azərbaycan, Qazaxıstan, Türkiyə və Qırğızıstanın ictimai-siyasi, mədəniyyət və elm xadimləri iştirak edib.

Akademiyanın prezidenti professor Darxan Kıdırali bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin böyük mütəfəkkir İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi şərəfinə 2019-cu ili "Nəsimi İli" elan etməsi təkcə Azərbaycanda deyil, bütün türk dünyasında böyük məmnunluqla qarşılanıb. Bu hadisə qardaş Azərbaycanda ortaq dəyərlərimizə, milli-mənəvi sərvətimizə verilən dəyərin, hörmət və ehtiramın yüksək göstəricisi olmaqla yanaşı, Azərbaycanın zəngin tarixi-mədəni irsinin qorunmasına və təbliğinə çox böyük töhfədir.



D.Kıdırali vurğulayıb ki, Nəsiminin ədəbi irsi dövrün dərin poetik fikirlərinin və fəlsəfi baxışlarının vəhdətini təşkil edir. Onun yaradıcılığı qədim köklərə və çoxəsrlik ənənələrə malik türk ədəbiyyatı tarixində xüsusi mərhələdir. Orta əsrlər türk poeziyasının humanizm ideyaları ilə zənginləşməsində və yeni məzmun kəsb etməsində unudulmaz şairin xidmətləri ölçüyəgəlməzdir.

Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov deyib ki, Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması Ümummilli Lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz onun təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirləri siyahısına daxil edilib və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunub.



Milli Məclisin deputatı Musa Quliyev "Nəsimi İli"nin Qazaxıstanda yüksək səviyyədə qeyd olunmasından məmnunluq ifadə edib və bildirib ki, Nəsimi əsərlərində daim düşünən, kamilləşmək arzusu ilə alışıb yanan, kainatın sirlərinə cavab axtaran bir insan obrazı var. Dərin məna kəsb edən yaradıcılığı ilə dünyanın ölməz sənətkarları sırasında şərəfli yer tutan, türkdilli poeziyanı inkişaf etdirən, Azərbaycan türk dilini ədəbi-bədii dil səviyyəsinə yüksəldən qüdrətli sənətkar bizə əvəzsiz bir irs qoyub gedib.

Musa Quliyev ədəbiyyat və mədəniyyətin xalqlarımızı yaxınlaşdırdığını, bunun üçün də qazax ədiblərinin əsərlərinin də Azərbaycan dilinə çevrilməsinin vacib olduğunu qeyd edib.

Qazaxıstanın Avrasiya Milli Universitetinin professoru, tərcüməçi, türkoloq Amantay Şarip isə bildirib ki, Azərbaycan türk dili və ədəbiyyatı tarixində ana dilinin fədaisi kimi önə çıxan Nəsimi öz yaradıcılığı ilə milli şeirin inkişafına yeni istiqamət verib.

Tədbirdə Beynəlxalq Türk Akademiyası tərəfindən qazax dilində çap olunan "Azərbaycan ədəbiyyatı antologiyası" və Nəsiminin şeirlərindən ibarət "Mən aləmə sığmazam" kitabları təqdim olunub, Azərbaycan, qazax və rus dillərində Nəsiminin şeirlərindən parçalar səsləndirilib.

* * *

Mayın 18-də Qırğızıstanın Bişkek şəhərindəki Manas Universitetində İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbir Azərbaycanın Qırğızıstandakı səfirliyi, TÜRKSOY təşkilatı, Manas Universiteti, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə baş tutub.



İlk olaraq Manas Universitetinin foyesində Azərbaycan Milli Kitabxanasının fondunda olan Nəsiminin əsərlərindən ibarət kitab sərgisinin açılışı olub.

Tədbirdə Manas Universitetinin professoru Asılbek Kulmurzayev çıxış edərək İmadəddin Nəsimini türk xalqlarının böyük şairi adlandırıb. Bildirib ki,

şair o dövrün önəmli mədəniyyət mərkəzləri olan Azərbaycan, İran, Türkiyə, İraq, Suriya şəhərlərini gəzərək öz ideyalarını bu bölgələrdə şeirləri vasitəsilə insanlara çatdırıb.

Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov İmadəddin Nəsiminin yaradıcılığı haqqında geniş söhbət açaraq, şairin çox mürəkkəb bir inkişaf yolu keçdiyini, Azərbaycan ədəbiyyatında ana dilində yaranan fəlsəfi şeirin əsasını qoyduğunu, XV əsrdən etibarən şairin bütün türk ədəbiyyatına güclü təsir göstərdiyini, əsərlərinin əlyazma şəklində geniş yayılaraq, dünyanın bir sıra mötəbər kitabxanalarında saxlandığını söyləyib.

Azərbaycanın TÜRKSOY-dakı daimi nümayəndəsi Elçin Qafarlı, Qırğızıstanın TÜRKSOY-dakı daimi nümayəndəsi Kojageldi Kuluyev, AMEA-nın Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, Manas Universitetinin dekanı professor Layli Ukubayeva, qırğız ədəbiyyatşünası dosent Karlıqaç Cumakatirova, türk yazıçı-araşdırmaçısı Kenan Çarboğa, qazax şairi Sayat Kamşiger, başqırd şairi Tamara Yuldaşeva və başqaları Nəsimi yaradıcılığı haqqında geniş söhbət açıblar, onu türk xalqlarının böyük şairi adlandırıblar.

Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucov çıxış edərək Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən ölkəmizdə və onun hüdudlarından kənarda İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə yüksək səviyyəli tədbirlərin keçirildiyini söyləyib.

* * *

İspaniyanın Alkala de Enares Universitetində ölkəmizin mədəniyyətinin təbliğ olunması, habelə dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar tədbir təşkil olunub. Tədbirə universitetin müəllim heyəti, habelə bu universitetdə təhsil alan xarici tələbələr qatılıblar.



Soydaşlarımız dahi Azərbaycan şairi İmadəddin Nəsiminin həyat və yaradıcılığı barədə tədbir iştirakçılarını ətraflı şəkildə məlumatlandıraraq, diqqətə çatdırıblar ki, Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə 2019-cu il ölkəmizdə "Nəsimi İli" elan edilib.



Daha sonra Azərbaycanda ədəbi fikrin əsas simalarından biri hesab olunan ədibin ümumilikdə Şərq dünyasının mədəniyyət tarixində özünəməxsus yerə malik olduğu qeyd edilib, dahi şairin humanist ideyaları barədə geniş məlumat verilib.

* * *

Ölkə başçısının dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinin qeyd edilməsi ilə bağlı Sərəncamının icrası üzrə tədbirlər çərçivəsində Serbiyanın paytaxtı Belqraddakı "Yuqoslaviya kinoteatrı"nda şairin serb dilinə tərcümə edilmiş şeirlər məcmuəsinin təqdimatı keçirilib.

Azərbaycanın Serbiyadakı səfirliyinin təşəbbüsü və Belqradda fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə təşkil olunmuş tədbirdə Serbiyanın qanunvericilik orqanının Azərbaycan-Serbiya parlamentlərarası dostluq qrupunun üzvləri, dövlət xadimləri, hökumətin, diplomatik korpusun üzvləri, Serbiya paytaxtının yaradıcı və elmi dairələrinin, həmçinin ölkənin Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.



Tədbirdə Azərbaycanın Serbiya, Monteneqro, Bosniya və Herseqovinadakı səfiri Eldar Həsənov, Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı, akademik Kamal Abdullayev, Milli Məclisin deputatı Cavanşir Feyziyev və Serbiya Kral Akademiyasının üzvü akademik Sokol Sokoloviç çıxış ediblər.

"Nəsimi" filminin subtitrlərlə nümayişi qonaqlarda böyük maraq doğurub və gurultulu alqışlarla başa çatıb.